*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 345-349*

https://doi.org/10.62837/2026.3.345

**ELMİRA BAĞIROVA**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elmi işçisi***
elmirabagirova1949@gmail.com

# İBRAHİM ZAKİRİN SATİRALARI

Cənubi Azərbaycanın görkəmli şairlərindən olan İbrahim Zakir müasir Azərbaycan şeirinin tanınmış simalarındandır. O, uzun və mənalı bir yaradıcılıq yolu keçmiş, böyük satirik şairlərimizin təsiri altında əsərlər yaratmışdır.

İ.Zakir 1892-ci ildə Ərdəbil mahalının Şeyx Kəlxoran kəndində əkinçi ailəsində anadan olmuşdur. Onun uşaqlıq illəri də Ərdəbildə keçmiş, elə ilk təhsilini də oradakı molla məktəbində almışdır.

60 ildən artıq yaradıcılıq yolunda inamla addımlayan İ.Zakir, M.Ə.Sabir və M.Ə.Möcüz satira məktəbinin ləyaqətli davamçılarından olmuşdur. O, bədii yaradıcılığa gənc yaşlarından başlamış, "Molla Nəsrəddin" jurnalından hədsiz dərəcədə faydalanmışdır. Zakir ilk şeirlərini Azərbaycan xalqının sevimli şairi M.Ə.Sabirin satiralarını oxuyandan sonra yazmağa başlamışdır. Qələmə aldığı ilk sətirlərdən onun Sabir poeziyasına, Sabir şeirinə vurğunluğu nəzərə çarpır və bu səpkidə şeirlər yazmağa daha da səy göstərir.

Oxuduqlarından, gördüklərindən ruhlanan İ.Zakir dövrünün ictimai ədalətsizliyini, əsarət və haqsızlığını dərindən dərk edərək neçə-neçə əsərlər yazır, xalqının güc və qüdrətinə inanaraq şeirləri vasitəsilə ona xoş günlər arzulayır.

Doğma yurdum Kəlxuran, şanlı diyarın var sənin;
Saf suyun, sakit havan, göyçək baharın var sənin,
Çün təbiət ta əzəldən bəxş edib nemət sənə,
Bağu bostanın, çiçəkli laləzarın var sənin.
Kim səyahət etməyə gəlsə sənin ətrafına,
O görər güllü, gülşənli səbzəvarın var sənin.

Bədii yaradıcılığının ilk dövrlərində gənc şair məşrutə hərəkatında iştirak edərək "Fəryad edirəm", "Novruz bayramı", "Mənə nə", "Ara həkimləri" kimi satirik məzmunlu şeirlər qələmə alır ki, onlar da Rəşt qəzetlərində çap olunur. Şeirlərində mövhumatı, geriliyi, faşizmi ifşa edir, xalqının səadətə qovuşacağını, sülhü, həmrəyliyi tərənnüm edir.

Lakin bu şeirlərdən xəbər tutan polislər onu dəfələrlə təqib edirdi. İ.Zakir də canını qurtarmaq üçün kəndə gedib bir müddət orada gizlənməli olurdu. Qara

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 345-349*

qüvvələrə qarşı çıxan Zakir susmur, tənqidi yazıları ilə çıxış edirdi. Beləliklə, satirik şeirlərinə, həm də siyasi fəaliyyətinə görə həbs olunaraq yurdundan – Ərdəbildən sürgün edilir. Bir müddət Mazandaranın Sarı kəndində sürgün həyatı yaşayan Zakir yenə qələmini yerə qoymur, "Qara pul", "Qürbətdə" və s. şeirlərlə yanaşı satirik şeirlər yazmağa davam edir.

Onun satiralarında feodal-patriarxal münasibətlərin, faşizmin, mövhumatın, ətalətin tənqidi əsas yer tutur. Şair bütün yaradıcılığı boyu zəhmətkeş xalqın səadəti uğrunda çalışmış, beynəlmiləlçiliyi, sülhü və xalqlar dostluğunu tərənnüm etmişdir. Bu dövrdə qələmə aldığı əsərlərdə də ictimai quruluşa nifrətini, Vətən həsrətini tam aydınlığı ilə görmək mümkündür. Nəhayət, 1941-ci ildə Ərdəbilə qayıdan şair mübariz yoldaşları ilə birlikdə faşizmə qarşı təşkilatların yaranmasında iştirak edir və həmin cəmiyyətin nəşr etdiyi "Zidd faşist" vərəqələrində öz şeirlərini çap etdirir. Onun "Xitab", "Söhbət" və s. bu kimi şeirləri əzmlə yazılmış mübarizə ruhlu şeirlər idi.

Yatma qəflətdə, dur ey zülmlərin amacı,
Yeri yox, mənzili yox, bir çörəyin möhtacı!
Görürəm yoxdu libasın, bədənin üryandır,
Küçədə, şaxta qabağında işin əfqandır.
Əli qoynunda, gözüyaşlı özün, övladın,
Bir nəfər yoxdur eşitsin ucalan fəryadın.
(Xitab)

İ.Zakir 1941-45-ci illərdə Cənubi Azərbaycanda başlamış milli-azadlıq hərəkatında yaxından iştirak etmiş, fədai başçısı olmuşdur. 1945-ci ilin sentyabrında "Azərbaycan Demokrat Firqəsi", dekabrda isə Azərbaycan Milli Hökuməti təşkil olunur. Xalq öz arzusuna çatır və sevinirdi. Bu vaxtlar Azərbaycan mədəniyyətinin inkişafı üçün də geniş imkanlar yaranır.

Əyanın əlindən çıxıb hər yerdə idarə,
Rüşvət sözünü tudə alıb atdı kənarə,
Bundan sonra olmaz daha heç dərdimə çarə.
Getdi ağalıq, ortadan izzət götürüldü;
Rəyət qoşulub xan-bəyə, hörmət götürüldü.

İ.Zakir, nəhayət ki, öz məqsədinə doğru irəliləyir, hətta məsul vəzifələrdə də çalışır. Xalqın mübariz oğlu, gələcəyə ümid dolu gözlərlə baxan, ürəyi tükənməz arzularla çırpınan şair nikbin əhval-ruhiyyə ilə yaradıcılığını xalqın xidmətinə həsr edir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 345-349*

Şair bu dövrdə yazdığı şeirlərin mövzusunu əsasən kəndlilərin yeni həyatından, torpaq bölgüsündən, fədailərin, zəhmətkeş insanların mərdliyindən, qəhrəmanlıqlarından alırdı.

Lakin, 1946-cı ilin dekabrında Cənubi Azərbaycanda demokratik hökumət şah istibdadı və imperializmin ağaları tərəfindən ələ keçirildikdən sonra ölkədə xaos, təqib, hərc-mərclik, həbslər tüğyan edir. Şair xalqının qəhrəman oğullarının mətin iradəsini ifadə edərək, qanı bahasına əldə edilmiş azadlığı qorumaq üçün qələmi tüfənglə əvəz edəcəyinə və sona qədər vətənin azadlığı uğrunda döyüşəcəyinə and içirdi.

Şair düşmənin vəhşiliyini, soyğunçuluğunu öz şeirlərində nifrət dolu misralara çevirir, xalq qanını soranları qamçılayaraq yazırdı:

Qismət olacaqdır, bizə qanuni-əsasi,
Ərşə ucalar işçilərin sürx-nəvasi,
Qalmaz daha nahaq ölənin yerdə qisası,
Bundan sonra artar vətənin zövqü-səfası,
Cəllada verər məhkəmələr hökm-ədavət.

Yüzlərlə insan vətəni tərk etmək məcburiyyətində qalır, o cümlədən, Şimali Azərbaycana pənah gətirənlər də az olmur. Onların arasında İbrahim Zakir də var idi. Şair işğalçılarla, xalqın azadlığı uğrunda mübarizəsini boğanlara qarşı əsərlər yaratmaqla yanaşı dövrün tələblərinə də biganə qalmır, həyatda baş verən hadisələrə öz şeirləri ilə münasibətini bildirməyə çalışırdı. Şimalda şairin yaradıcılığı üçün geniş imkanlar açılır. Bakıda yaşadığı illər onun həyatının yeni mərhələsi idi.

Ey könül, əvvəl günündən namdar olmuş Bakı,
Durmadan haqqın yolunda cannisar olmuş Bakı.
Çünki əvvəldən olubdur qəhrəmanlar məskəni;
İş görüb şöhrət qazanmış, bəxtiyar olmuş Bakı.
Həmişə yardım edib darda qalan insanlara,
Bir böyük qüdrətlə dillərdə şüar olmuş Bakı.

25 il Bakıda yaşayıb-yaradan İ.Zakirin bu müddət ərzində bir çox şeirlər kitabı işıq üzü görmüşdür. “Savalan xatirələri”, “Mənim andım”, “Zəfər günəşi”, “Mübariz gənclər”, “Şeirlər”, “Vətən nəğmələri” adlı kitabları nəşr edilmiş, mətbuatda bir çox şeirləri dərc olunmuşdur. Şimali Azərbaycanda xüsusi bir fəallıqla yazıb-yaradan sənətkar ömrünün sonuna qədər bədii yaradıcılıqdan zövq alaraq ədəbi fəaliyyətini davam etdirmişdir.

İ.Zakir 1971-ci il oktyabrın 27-də Bakıda vəfat etmiş, burada da dəfn olunmuşdur.

Şairin br neçə şeirini təqdim edirik:

**MİRZƏ ƏLƏKBƏR SABİRƏ**

Böyük şair, kəlamından mən tərbiyə götürmüşəm;
Odur sənə öz qəlbimdə həmişəlik yer vermişəm.
Sən yazdığın şeirlərin misrasına baxanda mən,
Oxuduqca ilham allam onun hər bir nöqtəsindən.

Sən ey əziz, böyük ustad, sözün xalqa nəsihətdir;
"Hophopnamən" bizim üçün, nəsillərçin bir ibrətdir.
Qoca Zakir əsərinlə həmdəm olub səhər-axşam,
O pürımənа kəlamından oxuduqca alır ilham.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Azadlıq yollarında (almanax). IV. B. Azərnəşr, 1959, 191 s.
2. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə, III cild, B., Elm., 1988, 550 s.
3. Cənubi Azərbaycan şairləri. B., Uşaqgəncnəşr, 1950, 72 s.
4. Xuraman Hümmətova. İbrahim Zakir. "Ədəbiyyat və İncəsənət" qəzeti, 1991, 13 dekabr.
5. İbrahim Zakir. Mübariz gənclər. B., Azərnəşr, 1955, 70 s.
6. İbrahim Zakir. Savalan xatirələri. B., Azərnəşr, 1961, 62 s.
7. İbrahim Zakir. Zəfər günəşi. Şeirlər. B., Azərnəşr, 1978, 44 s.

**XÜLASƏ**
**İBRAHİM ZAKİRİN SATIRALARI**

İbrahim Zakir böyük şairimiz M.Ə.Sabirin satiralarını oxuduqdan sonra şeirlərini yazıb. Oxuduqlarından, gördüklərindən ruhlanan İ.Zakir dövrünün ictimai ədalətsizliyini, qanunsuzluğunu dərindən dərk etmiş, bir neçə əsər yazmışdır. Xalqın gücünə, qüdrətinə inanan, ümidini heç vaxt itirməyən şair şeirlərində sülhü, həmrəyliyi tərənnüm edirdi.

**Açar sözlər:** Cənubi Azərbaycan, şair, satirik şeirlər, sülh, həmrəylik

## РЕЗЮМЕ
## САТИРЫ ИБРАГИМА ЗАКИРА

Ибрагим Закир писал свои стихи, прочитав сатиры нашего великого поэта М.А.Сабира. Вдохновленный прочитанным и увиденным, И.Закир глубоко осознал социальную несправедливость и беззаконие своего времени и написал несколько произведений. Поэт, веривший в силу и мощь народа и не терявший надежды, воспевал в своих стихах мир и солидарность.

**Ключевые слова:** Южный Азербайджан, поэт, сатирические стихотворения, мир, солидарность

## SUMMARY
## SATIRAS OF IBRAHIM ZAKIR

Ibrahim Zakir wrote his poems after reading the satires of our great poet M.A.Sabir. Inspired by what he read and saw, I.Zakir deeply understood the social injustice and iniquity of his time and wrote several works. Believing in the strength and power of the people and never losing hope, the poet praised peace and solidarity in his poems.

**Key words:** South Azerbaijan, poet, satirical poems, peace, solidarity

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent. Mehdibəyova Mahmizər tərəfindən çapa tövsiyə olunmuşdur.**